# Uşaqlarda bədii yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi

**Əminə Baba qızı Qədimova**
*pedaqogika üzrə fəlsəfə doktoru*
**E-mail:** aminaqadimova@admiu.az

**Rəyçilər:** p.ü.e.d., prof. L.N. Qasımova,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** uşaqlarda bədii yaradıcılıq, qabiliyyət, yaradıcılığın inkişaf etdirilməsi, yaradıcı fəallıq, ilham, talant

**Ключевые слова:** художественное творчество, способности, творчество детей, творческая деятельность, вдохновление, талант

**Key words:** artistic creativity in children, ability, development of creativity, creative activity, inspiration, talent

Cəmiyyətin üzvlərinin şüurluluğu nə qədər yüksək olursa, dövlətin maddi-texniki bazasının yaradılmasında, əmək normalarının dolğun bir surətdə həyata keçirilməsində və uşaq arasında qabiliyyətin inkişafında onların yaradıcı fəallığı bir o qədər çox artar. Bunun üçün uşaqların təlim-tərbiyəsində hər bir ünsürdən geniş istifadə edilməli, onlar lazımi bilik, bacarıq və vərdişlərə dərindən yiyələndirilməlidir.

Dahi yunan filosofu Demokrit insanın mənəvi gözəlliyindən, yaradıcılıq qabiliyyətlərindən bəhs edərkən deyirdi ki, insan toxuculuqda hörümçəklərin, ev tikməkdə qaranquşların, oxumaqda bülbüllərin şagirdidir. Hər bir uşaq-bəşəriyyətin səhvlərinin, özünü yaşatmanın, əvəzsiz sərvətlərinin bənzərsiz forması və dilsiz əsrlərdən üzü bəri ərsəyə çatdırmaq istədiyi vaxt və oxumaqdan doymadığı kiçik ev ensiklopediyasıdır. Uşaqlar üzərində aparılan sadə müşahidələrdən alınan faydanın hüdudlarını təyin etmək hələ çox çətindir.

Yaradıcı məsələ ilə yaradıcılıq arasında əlaqəni artırmaq üçün yaradıcılıq prosesini üç əsas mərhələyə bölmək olar: a) problemin formalaşması; b) onun yaradıcı həlli; c) həllin doğruluğunun yoxlanılması, alınmış nəticənin təcrübi və ya nəzəri hesablama ilə yoxlanılması. Yaradıcılıq prosesi ilhamla bilavasitə əlaqədardır. Sənətkarların fəaliyyətində ilham müxtəlif formalarda üzə çıxır. Əsil sənətkarlarda ilham prosesi tez-tez baş verir. Yaradıcı adamların əksəriyyəti ilham gəlməyəndə yazmağın qeyri-mümkünlüyünü bu və ya digər şəkildə etiraf etmişlər. İlhamın təşəkkülündə sinir sisteminin xüsusiyyətləri də müəyyən təsir göstərir. Coşqun, hövsələsiz sinir sistemi tipinə və buna əsasən formalaşan xolerik temperamentə malik olan adamlarda ilham qüvvətli və tez keçici, qısa olur. Qüvvətli, səbirli sinir sistemi tipinə və buna əsasən formalaşan sanqvinik temperament tipinə malik olan adamlarda ilham qüvvətli və nisbətən davamlı olur. Zəif sinir sisteminə və buna əsasən formalaşan melanxolik temperamentə malik olan adamlarda ilham zəif və tez keçici olur. Yaradıcılıq obrazdan, təsvir ediləcək mövzudan asılı olaraq ilham qüvvətli və zəif ola bilər. İlham əsasən, gec-gec gəlir. Əgər o, tez-tez gəlsəydi keyfiyyətini itirərdi. İlhamın gec-gec gəlməsinin səbəb-zəruri informasiyaların toplanılması, təhlili və ümumiləşdirilməsinə sərf olunan vaxtın çoxluğudur. İlham qəflətən gəlir. Sənətkarlar ilhamdan öncə birdən-birə həm fiziki, həm də psixi cəhətdən aktivləşirlər. Bu aktivlik ilhamın gəlişi ilə davam edir. Bəzən elə vəziyyət olur ki, şair ilham prosesində, şeirin yazılışı zamanı yorulur, fiziki cəhətdən passivləşir, lakin zehni aktivlik onu işi davam etdirməyə təhrik edir. Adam yorulsa da yazır, ilhamın son anlarına kimi işləyir. İlham isə əslində

sənətkarın psixoloji hazırlıq məqamıdır.

Yaradıcılığın inkişafı üçün beyinin və hiss orqanlarının anadangəlmə (fitri) qabiliyyətləri rüşeymlərinin böyük əhəmiyyəti vardır. Görülən işin dərin maraq, qızğın məhəbbət də istedadın inkişafına kömək edir. A.M.Qorki qeyd etmişdir ki, insanın təbii istedadı bir qığılcımdır, bu qığılcım sönə də bilər, alovlana da bilər, onu böyük alova çevrilməyə məcbur etməyin təkcə bir yolu vardır ki, o da zəhmətdən, özünə qarşı yüksək tələbkarlıqdan ibarətdir.

Ümumiyyətlə, maraq şəxsiyyətin müəyyən bilik və ya fəaliyyət sahəsinə yiyələnməyə yönəlməsində ifadə olunan fərdi psixi xüsusiyyətdir. Maraqlar tələbat əsasında əmələ gəlir. Belə ki, tələbatın ödənilməsi zərurətinin dərk edilməsi maraqları doğurur. Maraq müəyyən bir obyekti daha ətraflı və dərindən öyrənmək səyi doğurur.

Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin inkişafı və formalaşdırılması işini məktəbəqədər yaşda qoyulur. Uşaqlar dünyaya göz açdıqları birinci gündən onlarda sərbəstliyin, yaradıcılıq ünsürlərinin, ətraf mühitə marağın və s. inkişafına dərin diqqət yetirilməsi, uşaq tərbiyəsinin ən ümdə amillərindən biridir. Onların bədii yaradıcılığında uşaq emosionallığı baş verir. Uşaq həyatında hər gün-yeni kəşf, sahilsiz təəssüratlar dənizidir. Onun bilik və təcrübəsi nə qədər az olsa dünyanın xəritəsi ona daha dumanlı görünür. Uşaq şeylərin çoxlu miqdarda olan xassələrindən və xüsusiyyətlərindən baş çıxartmaq, onu əhatə edən hər şey haqqında düzgün təsəvvür əldə etmək istəyir. Hər şey onlara kəşf kimi görünür. İlk qar, baharın gəlməsi, çiçəklərin açılması, quşların nəğməsi, həyatın özü onların sevincinə səbəb olur. Yeniyetmələrdə həyati təəssüratlar ehtiyatı xeyli genişlənir. Onlar təbiətin gözəlliyi, adamlara, şəxsi hərəkətlərinə qarşı öz münasibətlərini dərindən hiss edirlər. Onlar artıq bədii ədəbiyyatdan çox şey əxz etmişlər. Yeniyetmələrin şeirləri, oçerkləri, hekayələri və ədəbi gündəlikləri həm mövzu, həm də məzmun etibarı ilə əhəmiyyətlidir.

Bədii yaradıcılıq uşaq fəallığını və müşahidəçiliyini inkişaf etdirir. Yazmaq istəyən uşaq onu əhatə edən həyatda nələr baş verdiyinə nəzər yetirməli, heyvanların rəftarındakı, təbiət hadisələrindəki maraqlı xüsusiyyətləri görməlidir. O, insan münasibətlərinə daha diqqətlə nəzər yetirir, həm də öz şeirlərində, həm də nəsr əsərlərində pis hərəkətləri tənqid edir, dostluğu, yoldaşlığı, təvazökarlığı, igidliyi və xeyirxahlığı təsdiq edir. Bədii yaradıcılıq tədricən uşaq üçün vətəndaşlıq hisslərini ifadə etmək vasitəsi olur. Yeniyetmə özünün bir şəxsiyyət olduğunu dərk etdikdə ona tamamilə aydın olur ki, şəxsiyyətin əsasını əmək, yaradıcılıq təşkil edir. M.Qorki demişdir: “Dahilik-əməyə məhəbbətin təcəssümüdür”.

Uşaqların bədii yaradıcılıq fəaliyyətinin daha da genişləndirilməsi üçün təhsil müəssisələrində mövcud olan bədii dərnəklər və studiyaların işinə, orada məşğul olan istedadlı uşaqların yaradıcılığına baxışlar, müsabiqələr keçirilməli, fərqlənənlər rəğbətləndirilməlidir. İstedadlı uşaqların respublika miqyasında tanınması üçün olimpiada festifal və müxtəlif müsabiqələrdə iştirak etmələrinə hər cür şərait yaradılmalıdır.

Səməd Vurğunun təlim-tərbiyə haqqında görüşlərində uşaqların bədii zövqünə lap kiçik yaşlarında fikir vermək və onları düzgün istiqamətləndirmək tələbi də mühüm yer tuturdu. Xalq şairi dərsliklərdə şeirə, sənətə sadəcə informasiya vasitəsi kimi hallarına qarşı çıxır, belə halların təzahürünü kəskin tənqid edib yazırdı: “…bəzi şairlərimizdə insaf yoxdur. Onlar həyat dedikləri zaman ritorika, qansız və cansız rəqəmlər, zövqsüz və quru səhnələr yaradaraq uşaqlarımıza əzbərlədirlər… Şeir və sənət adına böhtan olan… xaltura bizim balalara nə kimi bədii bir zövq verir?” (Əsərləri. 5-ci cild. səh.315-316). Müasir uşaq, onun həyatı və psixologiyası, düşüncə tərzi, tələb və zövqü S.Vurğunu həmişə maraqlandırmışdır.

Bədii yaradıcılıq uşağın ağlını zənginləşdirir, təxəyyül və yaradıcılıq fantaziyasını inkişaf etdirir.

Unutmaq olmaz ki, təhsil müəssisələrində, məktəbdənkənar tərbiyə ocaqlarında uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün daha əlverişli şərait vardır. Bu uşaqların ahəngdar inkişafından ötrü çox vacibdir.

Müasir dövrdə uşaqların bədii yaradıcılıq fəaliyyətinə istiqamətləndirilməsində təhsil müəssisələri ilə yanaşı ayrı-ayrı nazirliklərin, elmi müəssisələrin və yaradıcılıq ittifaqlarının birgə səyi vacibdir. Unutmaq olmaz ki, təhsil müəssisələri gənclərin bədii yaradıcılıq qabiliyyətini inkişaf etdirmək müasir dövrün ən mühüm pedaqoji problemlərindən biridir. Onun müvəffəqiyyətli həlli gənc şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafında, intellektual mədəniyyətinin yüksəldilməsində çox böyük rol oynayır.

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, bədii yaradıcılıq son dərəcə mürəkkəb, adi insan şüuru ilə dərk olunmayan bir prosesdir və onu şərtləndirən rəngarəng, bənzərsiz elmi-psixoloji, obyektiv və subyektiv amillər mövcuddur.

**Məqalənin aktuallığı.** Müasir dərsdə uşaqlarla işin səmərəli təşkili son dərəcə vacibdir. Bu müəllimin də, uşaqların da fəallığını tələb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə yaradıcılığın əsas aspektlərinə həsr olunub. Uşaqlarda müstəqil işləmək bacarığı özünə inam və aldıqları nəzəri biliklərdən praktikada tətbiqini təmin edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Təlim prosesində yaradıcı xarakterli məsələlərin geniş tətbiqi müəllimlərin peşəkarlığının artırılmasını tələb edir, eyni zamanda uşaqların yaradıcılıq qabiliyyətlərini üzə çıxarır.

## Ədəbiyyat

1. Ağayev R.Ə., Əlizadə A.İ. Bədii xalq yaradıcılığında tarixilik və varislik. Bakı. 2003.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2006.
3. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı, 1981.
4. Eminov A.İ. Şagirdlərdə yaradıcı fantaziya tərbiyəsi. Bakı. 1980.
5. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problem. Bakı. 2004.
6. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı, 2001.
7. Kərimov K.Ə. Şagirdlərin yaradıcı fəallığı ilə əlaqədar müəllimlərin ixtisaslarının artırılması məsələləri. Bakı, 1995.

**А.Б. Кадымова**

## Развитие художественного творчества у детей

## Резюме

В статье рассказывается о сущности художественного творчества, изучении науки творческой психологии, это одно из направлений. С этой целью в статье проводится обширное исследование роли детей в развитии художественного творчества. Художественного творчество помогает детям правильно определить свой дальнейший жизненный путь. Лучшие результаты достигаются в организации и деятельности художественного творчества с учётом возрастных и индивидуальных особенностей детей, принципов систематизации, системности, единства требований, воспитания в коллективе коллективными средствами, эстетического воспитания.

**A.B. Gadimova**

## Development of artistic creativity in children

## Summary

Comparative analysis of the nature of artistic serration in the article, scientific it is about clarifying innovation. Creativity is one of the fields of the fields of study in psychology. To this end, the article provides extensive research on the role of children in the development of artistic creativity. Artistic creativity helps children to correctly determine their future life path. Better results are achieved in the organization and activity of artistic creation, taking into account the age and individual characteristics of children, the principles of systematization consistency, unity in requirements, collective upbringing in the collective, and aesthetic education.

**Redaksiyaya daxil olub:** 24.11.2020